# 2011-Cİ İL ÜÇÜN GƏNC ALİM VƏ MÜTƏXƏSSİSLƏRİN 1-Cİ QRANT MÜSABİQƏSİ (EİF/GAM-2011-2(4)) ÇƏRÇİVƏSİNDƏ YERİNƏ YETİRİLMİŞ LAYİHƏ ÜZRƏ ELMİ NƏŞRLƏR VƏ ƏSAS ELMİ NƏTİCƏLƏR

Təqdim olunan layihədə fəaliyyət göstətən beynəlxalq reytinqlərin metodologiyası araşdırılmış və metodologiyaların təsnifatı aparılmışdır. Beynəlxalq reytinqlərdə Azərbaycan universitetlərinin yer almaması və ya aşağı pillələrdə yer tutmasının səbəbləri müəyyənləşdirilmişdir.

Azərbaycan universitetlərinin veb saytlarının kəmiyyət və keyfiyyət göstəriciləri, saytlara gələn xarici istinadlar, akademik verilənlər bazasında məqalələr, veb saytların reytinqə təsir edən aspektləri haqqında geniş məlumat verilib.

Azərbaycan universitetlərinin reytinqinin keçirilməsi üçün milli müxanizmlər işlənilmishdir. Milli mexanizm 24 göstəricidən ibarət olmaqla 3 kateqoriyada cəmləşdirilmişdir.

1-ci kateqoriya universitetin əməkdaşlarının nə dərəcədə elmi ad və elmi dərəcəyə malik olduğunu, kadr hazırlığını və beynəlxalq əlaqələrini göstərir.

2-ci kateqoriya universitetin professor-müəllim heyətinin elmi fəaliyyətinin keyfiyyətini, nüfuzunu və akademik fəaliyyətini göstərir. Burada professor-müəllim heyətinin məqalələri, monoqrafiyaları, dərslik və dərs vəsaitləri, patentləri və alimlərin sahələr üzrə h-indeksi əsas götürülür.

3-ci kateqoriya universitetin kiberməkandakı mövqeyinin göstəricisidir. Burada universitetlərin veb saytına gəlmiş xarici istinadların, veb saytında yerləşdirilmiş qiymətli faylların, veb saytında altsəhifələrin sayı və veb saytının keyfiyyəti, həmçinin universitetin elektron kitabxanasının, vahid domeninin, professor-müəllim heyətinin məqalələrinə hiperəlaqələrin, universitetin jurnallarının elektron versiyalarının mövcudluğu, saytın dizaynı, informativliyi, arxivləşdirmə və s. parametləri əsas götürülmüşdür.

| № | Nəşr haqqında məlumat (Məqalələr) | Tam mətn |
|---|---|---|
| 1 | **Məqalənin adı:** Azərbaycan Universitetlərinin Reytinqinin keçirilməsi üçün milli mexanizmin işlənməsi<br>**Müəlliflərin S.A.A:** Ə.Yaşar<br>**Nəşrin adı:** Bakı Universitetinin xəbərləri, 2013, №3, s.112-179<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | PDF Adobe |
| 2 | **Məqalənin adı:** Azərbaycan universitetlərinin vebometrik göstəricilərinin analizi<br>**Müəlliflərin S.A.A:** Məmmədov Ə.<br>**Nəşrin adı:** Gənc alimlərin əsərləri, 2013, № 7, s.27-371<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | PDF Adobe |